AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti* — № 45 (1445), 10 - 16 dekabr 2019-cu il — *Qəzet 2001-ci ildən çıxır.*

## Yardımlı rayonunda İdman Kompleksinin tikintisinin başa çatdırılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin

## Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Yardımlı rayonunda İdman Kompleksinin tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.20.4-cü yarımbəndində göstərilmiş məbləğin 7 511 400 (yeddi milyon beş yüz on bir min dörd yüz) manatı Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev*

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 3 dekabr 2019-cu il.*



XX əsr bəşəriyyətə çox görkəmli elm xadimləri, müdrik, təcrübəli və qətiyyətli rəhbərlər, son dərəcə bacarıqlı dövlət başçıları bəxş etmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev belə dahi şəxsiyyətlərdən biridir. O, 34 illik çoxcəhətli fəaliyyəti, müdrik rəhbərliyi ilə Azərbaycan xalqının tarixində bu böyük şəxsiyyət əsrlərə sığmayan şərəfli iz qoymuşdur. Onun möhkəm inamı, hər şeyə nüfuzetmə qabiliyyəti, qibtə doğuracaq hafizəsi hamını heyran edirdi. Heydər Əliyevin müdrik rəhbərliyi və uzaqgörən siyasəti sayəsində Azərbaycan iqtisadi, ictimai-siyasi, mənəvi, mədəni və idman sahələrində böyük uğurlar qazanaraq, təkcə keçmiş SSRİ-də deyil, bütün dünyada tanındı.

*(ardı 2-ci səhifədə)*

# Heydər Əliyevin xatirəsi idmançıların da qəlbində həmişə yaşayır və yaşayacaqdır

## Olimpizm

### Tomas Bax Beynəlxalq Voleybol Federasiyasına təşəkkürünü bildirib

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Bax innovasiyaların uğurla həyata keçirilməsinə görə Beynəlxalq Voleybol Federasiyasının (FİVB) prezidenti Ari Qrasa Filyoya təşəkkürünü bildirib. Bu barədə federasiyanın mətbuat xidməti məlumat yayıb.

BOK-un Lozannadakı mənzil-qərargahında BOK və FİVB İcraiyyə komitələrinin görüşü keçirilib. Görüşdə çıxış edən Bax deyib: "Biz ən uğurlu



federasiyalardan birinin nümayəndələrini görməyə şadıq. Siz idmanı necə uğurla inkişaf etdirməyi bilirsiniz, bütün problemlərin həlli yollarını tapırsınız və innovasiyaların tətbiqinə geniş yer ayırırsınız. Mən FİVB-in azarkeşlərin cəlb edilməsi sahəsində fəaliyyətini də qeyd etmək istərdim".

Qrasa Filyoya görüşdə qeyd edib: "Ailə dəyərləri və gender bərabərliyi bizim üçün çox mühümdür, biz zərif cinsin nümayəndələrini həmişə dəstəkləyirik. Qadın komandaları da kişi idmançıları bərabər mükafatlar alır, KİV-lərdə işıqlandırılır, maliyyə göstəriciləri eynidir. Hesab edirəm ki, bütün bunlar bizi digər idman növlərindən fərqləndirir". Federasiya rəhbəri əlavə edib ki, BOK-un mənzil-qərargahında da işləyən personalın sayında qadınlarla kişilər bərabər bölünüblər, rəhbər vəzifələrin 45 faizini qadınlar tuturlar.

Görüşdə, həmçinin dopinqlə mübarizə, düzgün idarəçilik, ayrı-seçkiliyə yol verilməməsi, qarşıdakı Olimpiya oyunlarına və gənclərin Olimpiya turnirinə hazırlıq məsələləri müzakirə olunub. BOK-un idman direktoru Kit Makkonnell bildirib ki, 2016-cı ildə Rio-de-Janeyroda keçirilmiş Olimpiya oyunlarında qadın voleybolu yarışları televiziya tamaşaçıları arasında ən populyar turnir olub.

FİVB ilə görüş cari ilin iyununda Lozannada açılmış BOK-un mənzil-qərargahında federasiya ilə keçirilən ilk tədbir olub.

### 2020-ci il Olimpiya Oyunlarının Təşkilat Komitəsi iki idman növü üzrə yarışların vaxtını dəyişib

2020-ci il Tokio Olimpiya Oyunlarının Təşkilat Komitəsi isti havaya görə iki idman növü - triatlon və atçılıq idmanı üzrə yarışların keçirilməsi vaxtının dəyişdiyini elan edib. Bu barədə məlumatı Təşkilat Komitəsinin mətbuat xidməti yayıb.

Triatlon üzrə kişilər və qadınlar arasında keçiriləcək fərdi yarışlar əvvəllər nəzərdə tutulduğu kimi yerli vaxtla saat 07:30-da deyil, 06:30-da başlayacaq. Qarışıq estafet yarışlar isə bir saat gec - 07:30-da start götürəcək. Kişilərin yarışının iyulun 27-də, qadınların mübarizəsinin isə iyulun 28-də keçirilməsi nəzərdə tutulub. Qarışıq estafet yarışları avqustun 1-də keçiriləcək.

Təşkilat Komitəsi atçılıq idmanı yarışlarının da bir saat tez - 07:30-da keçirilməsini təsdiq edib. Triatlon və atçılıq idmanı üzrə yarışların vaxtının dəyişdirilməsi Beynəlxalq Olimpiya Komitəsi (BOK) və müvafiq federasiyalarla birlikdə müzakirə olunub. Bu təklif dekabrın 3-dən 5-dək Lozannada keçirilən BOK İcraiyyə Komitəsinin iclasında təsdiq olunub.

BOK bundan öncə də qızmar havalar səbəbindən Olimpiadada marafon və idman yerişi yarışlarının paytaxt Tokiodan şimaldakı Sapporo şəhərinə köçürülməsi barədə qərar qəbul edib.

XXXII Yay Olimpiya Oyunları 2020-ci il iyulun 24-dən avqustun 9-dək Yaponiyanın paytaxtında keçiriləcək. Yarışların təşkilinə 2 trilyon yen (17,8 milyard dollar) xərclənməsi nəzərdə tutulub.

### *Tokioda yeniyetmə gimnastımız qızıl medal qazanıb*

Yaponiyanın paytaxtı Tokioda keçirilən Batut Gimnastikası üzrə Dünya Yaş Qrupu yarışlarında növbəti idmançımız qızıl medal qazanıb.

Bu dəfə batut üzrə fərdi proqramda 11-12 yaşlı gimnastlar arasında ölkəmizi təmsil edən Maqsud Maqsudov yarışların qızıl medalına sahib olub. Təsnifat mərhələsində bütün rəqiblərini üstələyən Bakı Gimnastika Məktəbinin yetirməsi, finalda da birinciliyi əldən verməyib. Sonra mükafatların təqdim edilməsi mərasimi keçirilib.

İdmançımızın şərəfinə Tokio-2020 Yay Olimpiya Oyunları üçün inşa edilmiş Ariake İdman Sarayında Azərbaycanın dövlət himni səslənib, bayrağımız dalğalanıb.

### Karateçilərimiz Olimpiya reytinqində fərqli mövqedə

Dünya Karate Federasiyası (WKF) idmançıların Olimpiya reytinq cədvəlini açıqlayıb. Dünyanın ən güclü 20 karateçisinin arasında Azərbaycan yığmasının iki üzvü yer alıb. Dünya çempionu İrina Zaretska əvvəlki kimi 61 kiloqramdan yuxarı çəki dərəcəsində liderliyini davam etdirir (6772,5 xal). Dəfələrlə dünya və Avropa çempionu Rafael Ağayev isə 5595 xalla 75 kiloqram çəki dərəcəsində dördüncü yerdə qərarlaşıb.

Komandamızın digər üzvü Firdovsi Fərzəliyev (67 kq) isə ilk 20-dən kənarda qalıb. İdmançımız 2482,5 xalla 21-cidir.

## Anons

Atletimiz Avropa birinciliyinin qalibi adına layiq görülüb — Səh. 3

*"Olimpiya Odisseyası" layihəsi çərçivəsində növbəti görüş* — Səh. 5

*Azərbaycanda İKT-nin inkişaf dinamikası uğurlu gələcəkdən xəbər verir* — Səh. 6

Karate yenidən Yeniyetmələrin Yay Olimpiya Oyunlarının proqramında — Səh. 5

### UEFA Avropa Liqası (VI tur)

"Qarabağ" - "F91 Dudelanj"

(Azərbaycan) (Lüksemburq)

*12 dekabr. "Tofiq Bəhramov" adına Respublika Stadionu. Saat 21:55.*



# Heydər Əliyevin xatirəsi idmançıların da qəlbində həmişə yaşayır və yaşayacaqdır

*(əvvəli 1-ci səhifədə)*

Xalqımızın ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin yaradıcısı və qurucusu, dünyanın ən nüfuzlu siyasi xadimlərindən biri olan Heydər Əliyevin xatirəsi xalqımızın qəlbində həmişə yaşayır və yaşayacaqdır. Təkcə ona görə yox ki, Heydər Əliyev Azərbaycanda müstəqil dövlət quruculuğunun memarı idi, həm də ona görə ki, Azərbaycan xalqının hər bir nümayəndəsi bu böyük insanı ölkənin milli təhlükəsizliyinin və sosial-iqtisadi rifahının təminatçısı kimi qəbul edirdi. Bu dahi şəxsiyyət Azərbaycanı inkişaf yoluna çıxarıb. Bu gün xalqımızın orta və gənc nəsillərinin inkişafı, onların cəmiyyətdə formalaşmasının əsası məhz bu böyük şəxsiyyətin dövlətimizin sükanı arxasına keçdiyi illərdə qoyulub. Tarixə nəzər saldıqca, bunun bir daha şahidi oluruq.

Ulu öndərimizin əziz xatirəsi idmançılarımızın da qəlbində xüsusi yer tutur. Hər hansı ölkənin idman sahəsinin kifayət qədər ardıcıl və məqsədyönlü inkişaf etməsi dövlətin bu sahədəki ənənələri, idmançılara yaxşı münasibət, təcrübəli idman mütəxəssislərinin yetişdirilməsi, müxtəlif səviyyəli yarışların təşkili, idmançıların beynəlxalq yarışlarda iştirakına şərait yaradılması kimi amillərdən çox asılıdır. Bunların əsasında isə dövlətin bu sahəyə göstərdiyi diqqət və qayğı durur. Heydər Əliyevin ölkənin gələcəyi adlandırdığı gənclərimizin fiziki cəhətdən sağlam böyüməsi, vətənimizin beynəlxalq arenalarda layiqli təmsil olunması, müasir standartlara cavab verən böyük idman-sağlamlıq mərkəzlərinin inşası dövlətin yürütdüyü siyasətin başlıca istiqamətlərindən birini təşkil edib. Xalqımızın keçmişinə, tarixinə, milli dəyərlərinə yaxşı bələd olan Heydər Əliyev gənclərimizin idmana meylini və marağını həmişə yüksək qiymətləndirib: "Xalqımız, millətimiz genetik xüsusiyyətlərinə görə fiziki cəhətdən sağlam insanlardan ibarət olan xalqdır, millətdir. Fiziki sağlamlıq və fiziki güc mənəvi sağlamlıqla bərabər Azərbaycan xalqına, millətinə xas olan xüsusiyyətdir". Heydər Əliyev istər sovet dövründə, istərsə də ölkəmiz müstəqillik qazandıqdan sonra Azərbaycana rəhbərlik etdiyi illərdə idmana, onun inkişafına və maddi-texniki bazasının yaradılmasına, idmançılara dövlət səviyyəsində qayğı göstərilməsinə xüsusi diqqət yetirmiş, gənc nəslin fiziki cəhətdən sağlam böyüməsi məsələsini daim diqqət mərkəzində saxlamışdır. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə (1969-1982-ci illər) ölkədə bir çox idman kompleksləri tikilərək idmançıların ixtiyarına verilmişdir. Müstəqilliyimizin ilk illərində isə respublikada idmana münasibət son dərəcə aşağı səviyyədə idi. Ölkəmizin idman sahəsində mövcud olan ənənələri məhv olmaq təhlükəsi ilə qarşıqarşıya dayanmışdı. Heydər Əliyev ölkə rəhbəri seçildikdən sonra idmana münasibət dəyişdi. Xalqımızın ulu öndəri müxtəlif görüş və çıxışlarında idmanın xalqın və dövlətin həyatında necə böyük əhəmiyyət kəsb etdiyini diqqət mərkəzinə çəkərək, bu istiqamətdə iş görməyin vacibliyini daim xatırlatmışdır. O, idmanın inkişaf etdirilməsini dövlətin mühüm vəzifələri sırasına daxil etmişdi: "Biz respublikamızda əhalimizin, millətimizin sağlamlığı haqqında, fiziki, mənəvi sağlamlığı haqqında düşünürük. Bu gün də düşünürük, xalqımızın gələcəyi üçün də düşünməliyik. Bu, bizim vəzifəmizin içərisində ən böyük, ən əhəmiyyətli vəzifədir".

Ulu öndərin dövlətimizə rəhbərlik etdiyi illər ərzində idmanın maddi-texniki bazası möhkəmlənmiş, bədən tərbiyəsi kütləviləşmiş, ölkəmiz Olimpiya oyunlarında layiqincə təmsil olunmuşdur. Heydər Əliyev hər zaman idman komplekslərinin bütünlüklə gənclərin istifadəsinə verilməsini tövsiyə etmiş, istər Olimpiya, istərsə də qeyri-olimpiya idman növlərini inkişaf etdirməyə çağırmışdır. Ümummilli liderimiz ölkənin xoşbəxt gələcəyini gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam böyüməsində görürdü.

Uzaqgörən siyasətçi idmanın hər bir ölkə üçün beynəlxalq miqyasda da böyük siyasi əhəmiyyət kəsb etdiyini həmişə ön plana çəkmişdir. Heydər Əliyev beynəlxalq yarışlar sırasında Olimpiya oyunlarının ən mötəbər, ən yüksək yer tutduğunu həmişə xüsusi olaraq vurğulayıb: "Olimpiya oyunları dünyanın bütün ölkələrini maraqlandırır, burada cəmləşdirir. Hər bir ölkə çalışır ki, Olimpiya oyunlarında təmsil olunsun". Ulu öndər hər bir idmançının Olimpiya oyunlarında iştirakını böyük nailiyyət kimi qiymətləndirirdi.

1996-cı ildə Olimpiya yığmamızla Atlanta Olimpiadasına yola düşməzdən əvvəl keçirilən görüşdə Heydər Əliyev olimpiadada iştirakın vacibliyini bir daha nəzərə çatdıraraq demişdi: "Olimpiya oyunlarında iştirak etmək hüququ almaq üçün lazımi göstəricilər əldə etmək gərəkdir. Əgər bunlar olmasa, Azərbaycan dövləti, Azərbaycan Prezidenti nə qədər çalışsa, o nailiyyəti əldə edə bilməyən idmançı yığma komandanın tərkibinə düşə bilməz. Ona görə də 23 nəfərdən ibarət olan bu nümayəndə heyəti Azərbaycan Respublikasının idman sahəsindəki imkanını nümayiş etdirir. Sizin, yəni Azərbaycan Respublikasının komandasının XXVI Yay Olimpiya Oyunlarında iştirak etməsi özü əlamətdar bir hadisədir. Siz oradan hansı nailiyyətlə qayıdacaqsınızsa, bu, məsələnin ikinci tərəfidir".

Ulu öndərin tövsiyələr alan idmançılarımız Atlanta Olimpiadasında ölkəmizi layiqincə təmsil etdilər və sərbəst güləşçimiz Namiq Abdullayev gümüş medal qazandı. Olimpiadadan qayıtdıqdan sonra Prezident Aparatında keçirilən görüşdə Heydər Əliyev Namiq Abdullayevin gümüş medalının qızıla bərabər olduğunu bildirmişdi.



Heydər Əliyevin Azərbaycan idmanının və Olimpiya Hərəkatının inkişafında ən böyük xidmətlərindən biri də onun Azərbaycanda beynəlxalq səviyyəli idman yarışlarının keçirilməsi üçün qərar və göstərişlər verməsidir. Ümummilli lider ölkəmizə gələn yüksək rütbəli idman rəhbərlərini və xadimlərini şəxsən özü qəbul etmiş və onları Azərbaycanla sıx əməkdaşlığa çağırmışdı.

Ümummilli lider Heydər Əliyevin idmana göstərdiyi diqqət və qayğı beynəlxalq idman və Olimpiya təşkilatlarında da böyük əks-sədaya səbəb oldu. 1997-ci ildə Milli Olimpiya Komitələri Assosiasiyasının İslandiyanın Reykyavik şəhərində keçirilən Baş Məclisində Azərbaycan Prezidenti Olimpiya Hərəkatı və idman sahəsində böyük xidmətlərinə görə görkəmli dövlət xadimlərinə verilən "Olimpiya ləyaqəti" mükafatı ilə təltif edildi.

Ümummilli liderimiz Heydər Əliyevin idman və Olimpiya Hərəkatı ilə bağlı dediyi sözlər bu gün də öz əhəmiyyətini saxlamaqdadır. Onun çıxışlarında səslənən "Azərbaycan Milli Olimpiya Komitəsinin qurub yaratdıqları bir adam üçün deyil, millət, xalq, ölkədə idmanın inkişafı üçündür", "Biz idmana, bədən tərbiyəsinə qayğı göstərərək, millət, xalq, vətən qarşısında öz borcumuzu yerinə yetiririk", "Biz quruculuq işlərini aparmışıq, aparırıq və gələcəkdə daha sürətlə aparacağıq", "Gələcək Olimpiya oyunlarına qədər Azərbaycanda idman daha da yüksələcək, daha da yüksək inkişaf edəcəkdir" kəlamları gələcəyə nikbin gözlə baxmağa əsas verir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bütün sahələrdə ölkənin gələcək inkişafı istiqamətlərini müəyyənləşdirmişdir. Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev ölkəni Heydər Əliyevin təyin etdiyi xətlə irəliyə aparır. Bu, idmanda da əsas götürülmüşdür.

Ulu öndərin layiqli varisi, Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev indi bu ənənəni uğurla davam etdirir. Dövlət başçısının idmana göstərdiyi qayğı Azərbaycanın idman ölkəsi kimi tanınmasına şərait yaradıb. Bu qayğıdan ruhlanan Azərbaycan idmançıları ölkəmizin idman şərəfini layiqincə qoruyurlar.

Azərbaycan dünyada idman ölkəsi kimi tanınıb. Respublikamızın hər yerində müasir Olimpiya idman kompleksləri, meydançalar, idman mərkəzləri və digər qurğular inşa edilib. Yeniyetmə və gənc idmançıların idmanla məşğul olmaları üçün lazımi şərait yaradılıb. Eyni zamanda, ölkəmiz həm də bir sıra beynəlxalq turnirlərə ev sahibliyi edir. Heç də təsadüfi deyil ki, beynəlxalq federasiyalar yarışların ölkəmizdə keçirilməsinə üstünlük verirlər.

Respublikamızın ayrı-ayrı bölgələrində ümummilli liderimizin xatirəsinə həsr olunmuş turnirlər müntəzəm şəkildə keçirilir. İdmançılarımız bu yarışlara həvəslə qatılırlar. Ulu öndərin xatirəsinə olan ehtiram hər zaman idmançılarımızın qəlbində yaşayıb və yaşayacaq.

Əminik ki, idmançılarımız bundan sonra da mötəbər yarışlarda ölkəmizi layiqincə təmsil edəcək, beynəlxalq arenalarda bayrağımızı qaldırmaqla, himnimizi səsləndirməklə ümummilli liderimiz Heydər Əliyevin ölməz ruhunu şad edəcəklər.

## Heydər Əliyev idman və Olimpiya Hərəkatı haqqında demişdir:

"İdman kimi Azərbaycanın müstəqilliyinin rəmzlərini nümayiş etdirən ikinci bir vasitə yoxdur"

* * *

"İdmana, bədən tərbiyəsinə qayğı göstərərək, millət, xalq, vətən qarşısında öz borcumuzu yerinə yetiririk"

* * *

"İdmanla məşğul olan hər bir gənc potensial çempiondur. Əgər onun fiziki hazırlığı yüksək səviyyədə olarsa, əgər o, əzmlə çalışarsa, öz fiziki keyfiyyətlərini inkişaf etdirə bilərsə və yüksək mənəviyyatla bu işə yanaşarsa, təbiidir ki, çempion olacaq və çempionlar daha da çox olacaqdır"

* * *

"Biz idmanı, bədən tərbiyəsini kütləvi etməliyik. Gənclərin tam əksəriyyətini buna cəlb etməliyik, bu, Azərbaycan vətəndaşının hərtərəfli gələcəyi üçün təməldir. Buna nail olmaq üçün, təbiidir ki, lazımi imkanlar da, lazımi şərait də yaratmalıyıq"

* * *

"Mən bir daha əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan gəncləri idmanla daha da yaxından məşğul olacaqlar"

* * *

"İdman elə bir sahədir ki, idmançılarımız müxtəlif ölkələrdə yarışlarda iştirak edir, qələbələr qazanırlar və hər dəfə müstəqil Azərbaycanın adını ucaldırlar. Müstəqil Azərbaycanın himni çalınır, müstəqil Azərbaycanın bayrağı qaldırılır və müstəqil Azərbaycan dünyanın müxtəlif ölkələrində tanınır"

* * *

"Hər bir şəxsin, hər bir gəncin özünün fiziki sağlamlığı üçün səy qoyması, lazımi rejim yaratması və bədən tərbiyəsi ilə, idmanla məşğul olması onun sağlamlığının təminatıdır və Azərbaycan gəncliyinin fiziki sağlamlığının təminatıdır"

* * *

"Olimpiyaçılarımız, siz Azərbaycan xalqının nə qədər böyük işlərə qadir olduğunu dünyada bir daha nümayiş etdirdiniz"

* * *

"Azərbaycan bayrağı dünyada rəsmən, demək olar ki, iki dəfə qaldırılır. Bu, bir Azərbaycanın dövlət başçısı hər hansı bir ölkəyə gələrkən və bir də ki, idmançılarımız beynəlxalq yarışlarda çempion adını qazanarkən olur. Azərbaycan himni səslənir, dövlət bayrağı qaldırılır"

* * *

"Bizim məqsədimiz bütün Azərbaycan xalqının sağlamlığını - həm fiziki, həm də mənəvi, əqli sağlamlığını təmin etməkdir"

* * *

"İdmançılarımız dünyada keçirilən müxtəlif yarışlarda, olimpiadalarda iştirak edərək, Azərbaycanın adını yüksəldirlər"

* * *

"Milli Olimpiya Hərəkatı Azərbaycanda yeni yaranmağa başlamışdır. Keçmişdə belə hərəkat, belə təşkilat olmamışdır. Milli Olimpiya Hərəkatının və Milli Olimpiya Komitəsinin yaranması Azərbaycanın dövlət müstəqilliyinin, xalqımızın milli azadlığının bəhrəsidir, onun nəticəsidir"

# Taekvondoçularımız Moskva Qran-Prisində 2 medal qazanıblar

Moskvada keçirilən Qran-Pri turnirinin final mərhələsində iştirak edən Azərbaycanın üç taekvondoçusundan ikisi medal qazanıb. 80 kiloqram çəki dərəcəsində mübarizə aparan Milad Beigi Hərçəqani braziliyalı Migel Martinsa və özbəkistanlı Nikita Rafaloviça qalib gələrək finala vəsiqə qazanıb. O, həlledici döyüşdə Rusiya təmsilçisi Maksim Kramtçova uduzaraq turniri gümüş medalla başa vurub.



Radik İsayev (80 kq yuxarı) isə bürünc medalla kifayətlənib. Digər idmançımız Cavad Ağayev (68 kq) ilk döyüşündə britaniyalı Bredli Sindenə məğlub olaraq yarışı erkən tərk edib.

Məlumat üçün bildirək ki, 42 ölkədən 128 taekvondoçunun qatıldığı yarışda fəxri kürsünün ilk pilləsində yer alan idmançı aktivinə 80 xal yazdırıb. İkinci yeri tutan 48, üçüncü yerə sahib olan idmançı isə hesabına 28,8 reytinq xalı əlavə edib.

## Avropa birinciliyində böyük uğur

Almaniyada uşaq taekvondoçular arasında keçirilən Avropa birinciliyinə yekun vurulub.

Yarışların sonuncu günündə daha iki taekvondoçumuz mükafatçılar sırasında yer alıb. Yarışa qatılan Elmira Bayrak (22 kq, Sumqayıt, "Təhsil") və Süleyman Həsənov (24 kq, Gədəbəy "Gənclər İdman Klubu") bürünc medal qazanıblar.

Turnirin birinci günündə "Ümid" taekvondo klubunun yetirməsi Mehdi Budaqlı (27 kq) qızıl medala, Aydın Süleymanov (32 kq, Sumqayıt "Təhsil"), Mürşüd Qasımov (39 kq, "Əmin"), Tamerlan Yaqubov (29 kq, FHN) gümüş, Fərdi Quşxani (35 kq, "Ümid") isə bürünc medallara sahib olublar.

Taekvondoçularımız məşqçi-müəllimlərdən İlkin Şahbazov, Rəşad Məmmədov, Beyrək Bağırov və Ziya Qasımovun rəhbərliyi ilə mübarizə aparıblar.

Beləliklə, yarışda 10 idmançı ilə mübarizə aparan idmançılarımız 7 medala sahib olublar.



## Atletimiz Avropa birinciliyinin qalibi adına layiq görülüb

İsrailin Eylat şəhərində 15 və 17 yaşına qədər yeniyetmələr arasında ağırlıqqaldırma üzrə Avropa birinciliyi keçirilir. 37 ölkədən 498 (228 qız və 270 oğlan) idmançının iştirak etdiyi yarışda Azərbaycan atletləri də qüvvələrini sınayırlar. Yarışın ilk günündə üç atletimiz mübarizəyə başlayıb. Körpücük üzərinə ilk olaraq yaşı 15-ə qədər olan qızlardan Aişə Əliyeva (40 kq) çıxıb. Atletimiz ümumilikdə 85 kq (36+49) nəticə ilə 6-cı yeri tutub.

Sonra bu yaş qrupunda Selcan Qarayeva yarışıb. O, 45 kq çəki dərəcəsində 121 kq (53+68) nəticə ilə 7-ci pillədə qərarlaşıb. Oğlanlardan körpücük üzərinə ilk olaraq yaşı 15-ə qədər olan atletlərdən Kənan Rəhimov çıxıb. O, 49 kq çəki dərəcəsində ümumilikdə 168 kq (70+98) nəticə ilə 6-cı yeri tutub.

Növbəti yarış günündə yığmamızın üzvü Elşən Məmmədov yaşı 15-ə qədər olan atletlər arasında 61 kq çəki dərəcəsində qüvvəsini sınayıb. Atletimiz birdən qaldırma hərəkətində 106 kq nəticə ilə bu hərəkətdə gümüş medal qazanıb. Təkanla qaldırma hərəkətində 129 kq nəticə göstərən idmançımız bu hərəkətdə bürünc medala sahib olub.

Toplam 235 kq (106+129) nəticə (toplamda yeni Avropa rekordu) ilə Elşən Məmmədov Avropa birinciliyinin qalibi adına layiq görülüb.

Bu, onun ikinci belə nəticəsidir. Belə ki, Məmmədov ötən il İtaliyanın Milan şəhərində keçirilən Avropa birinciliyində də qızıl medal əldə etmişdi.

# Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin Madriddə təşkil etdiyi seminar başa çatıb

***Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi (MOK) və Olimpiya Kanalının İspaniyanın paytaxtı Madriddə təşkil etdiyi ikinci rəqəmsal kommunikasiya və media seminarı başa çatıb. Seminar Beynəlxalq Olimpiya Komitəsinin (BOK) Olimpiya Həmrəyliyi Fondunun maliyyə və texniki dəstəyi ilə təşkil edilib.***

Seminara Azərbaycan da daxil olmaqla, Avropanın 10 ölkəsi - Albaniya, Sloveniya, Slovakiya, Serbiya, Polşa, Çexiya, Xorvatiya, Belarus və Türkiyənin Milli Olimpiya komitələrinin müvafiq sahədə çalışan əməkdaşları qatılıblar.

Seminarın əsas məqsədi BOK-un "Olimpiya Gündəliyi 2020" sənədinə uyğun olaraq milli Olimpiya komitələri arasında əməkdaşlığın gücləndirilməsi, sosial media platformaları vasitəsilə hazırkı trendlərin istifadəsi, hər bir platformaya uyğun strategiyanın hazırlanması və effektiv həyata keçirilməsi, 2020-ci ildə Lozannada baş tutacaq Yeniyetmələrin Qış Olimpiya Oyunlarına və Tokio 2020 Yay Olimpiya Oyunlarına hazırlıq işlərindən ibarət olub.

MOK-un marketinq direktoru Mehman Kərimovun sözlərinə görə, Olimpiya Kanalının baş qərargahında təşkil edilmiş ilk belə regional seminar MOK və Olimpiya Kanalı arasında 2016-cı ildən yaranmış sıx əməkdaşlıq nəticəsində baş tutub. Məzmun və formatına görə ilk belə seminarın keçirilməsində BOK Olimpiya Həmrəyliyi Fondunun misilsiz rolunu qeyd edən M.Kərimov bunun da MOK üçün böyük etimad olduğunu vurğulayıb.

Olimpiya Kanalının baş meneceri Mark Parkman MOK-un tarixi əhəmiyyətli belə bir seminarın qurumun Madriddəki baş qərargahında təşkil edilməsi təşəbbüsünü yüksək qiymətləndirib və uğurlu əməkdaşlığa görə komitəyə dərin minnətdarlığını bildirib. M.Parkman seminarın təkcə Milli Olimpiya komitələri arasında deyil, həm də üzv komitələr ilə Olimpiya Kanalı arasında fərdi və qrup əməkdaşlığının gücləndirilməsinə təkan verəcəyini vurğulayaraq qurum üçün 2020-ci ildə baş tutacaq Oyunlar öncəsi xüsusi əhəmiyyət daşıdığını söyləyib.

Üç gün davam edən seminarda iştirakçılara Olimpiya Kanalının mütəxəssisləri tərəfindən rəqəmsal kommunikasiya və sosial media sahəsində baş verən son trendlər, müvafiq sahədə 2020-ci ildə Lozannada baş tutacaq Yeniyetmələrin Qış Olimpiya Oyunları və Tokio-2020 üçün planlaşdırılmış fəaliyyətlər haqqında ətraflı məlumat verilib. Mövzuya dair effektiv



strategiyanın qurulması və idarə edilməsi, geniş auditoriyaya hesablanmış məzmunun yaradılması, böyük idman tədbirləri, xüsusilə Olimpiya Oyunları zamanı sosial mediadan daha düzgün istifadəyə dair təqdimatlar və praktik müzakirələr də seminarın proqramına daxil idi. Təcrübə mübadiləsi məqsədi ilə Azərbaycan, Çexiya və Albaniya milli Olimpiya komitələri seminar iştirakçılarına mövzuya dair həyata keçirilmiş işlər, əldə edilmiş nailiyyətlər və 2020-ci ildə baş tutacaq Olimpiya Oyunlarına hazırlıq planlarını təqdim ediblər.

Seminarın sonunda tədbir iştirakçılarına təşkilatçı və dəstəkçi qurumların sertifikat və hədiyyələri təqdim olunub.

## *Tofiq Karayevin şərəfinə keçirilən atletika üzrə respublika turnirinə yekun vurulub*

Respublika Olimpiya Mərkəzində SSRİ rekordçusu, Ümumittifaq dərəcəli hakim, professor Tofiq Karayevin şərəfinə atletika üzrə XXIII ənənəvi Respublika turnirinə yekun vurulub.

Turnirdə Bakı, Gəncə, İsmayıllı, Bərdə, Xızı və Sumqayıtdan olan yeniyetmələrdən ibarət 29 komanda birincilik uğrunda mübarizə aparıb. Hər bir komandada bir qız və bir oğlan olmaqla 58 idmançı atletikanın 5 növü üzrə öz qüvvəsini sınayıb.

Yarışlarda "Kafarova 1" komandası 219 xal toplayaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. "Vəliyev 2" komandası 216 xalla ikinci, "Pavlov 1" isə 212 xalla üçüncü pillədə qərarlaşıblar.

Qeyd edək ki, yarış Azərbaycan Atletika Federasiyasının təşkilatçılığı ilə keçirilib.

## *Atletika məşqçiləri üçün seminar təşkil olunub*

Milli Olimpiya Komitəsi və Azərbaycan Atletika Federasiyasının (AAF) birgə təşkilatçılığı ilə məşqçilər üçün seminar keçirilib. Seminarın açılış mərasimində AAF-ın baş katibi Məhərrəm Sultanzadə iştirakçıları salamlayaraq sözü seminarın lektoru Valentin Buliçevə verib.

Seminarın birinci günündə məşqçilərə nəzəri məlumatlar verilib. Tədbirin ikinci günündə isə



məşqçilər Respublika Olimpiya Mərkəzində aşağı yaş qrupundan olan idmançılarla praktiki məşq keçiblər.

V.Buliçev cari ildə federasiyanın dəstəyi ilə Almaniyanın Maynts şəhərində məşqçilik təhsili alıb. O, Koreya Respublikasının Daegu şəhərində keçirilən ikinci dərəcəli məşqçilər üçün seminarı da uğurla başa vurub.

Qeyd edək ki, seminarın əsas məqsədi Almaniya və Koreyada öyrənilmiş yeni məlumatları məşqçilər ilə bölüşməkdir.

## Yeniyetmə cüdoçularımızdan 3 medal

Rusiyanın Sosnovıy Bor şəhərində cüdo üzrə ənənəvi beynəlxalq turnir keçirilib. 27-ci dəfə təşkil olunan yarışda Almaniya, Rusiya, Yunanıstan, Gürcüstan, Belarus cüdoçuları ilə yanaşı, Azərbaycanın yeniyetmələrdən ibarət komandası da mübarizə aparıb.

Məşqçi Zaur Babayevin başçılığı altında yarışan idmançılarımız komanda yarışında Gürcüstan, Moskva, Leninqrad vilayətinin komandalarını məğlub edərək finala çıxıblar. Həlledici görüşdə Krasnodar komandasına uduzan cüdoçularımız beynəlxalq turnirin gümüş medalı ilə kifayətləniblər.

Turnirin fərdi yarışlarında cüdoçularımız Aydın Rzayev (60 kq) qızıl, Emin Həsənov (46 kq) gümüş və Süleyman Əliyev (66 kq) isə bürünc medal qazanıblar.



## Millimiz hazırlığını Abşeron Olimpiya İdman Kompleksində davam etdirəcək

Kişi boksçulardan ibarət Azərbaycan millisinin növbəti təlim-məşq toplanışının Bakı Boks Mərkəzində keçirilən ilkin mərhələsi başa çatıb. Baş məşqçi Umberto Orta Domingezin rəhbərliyi altında bir araya gələn yığma hazırlığı Abşeron Olimpiya İdman Kompleksində davam etdirir. Buradakı hazırlıq prosesinə dekabrın 9-da start verilib. Gündə 2 dəfə məşq edən komandamızın düşərgəsinə 21 boksçu dəvət olunub.

Təlim-məşq toplanışına dekabrın 27-də yekun vurulacaq.

## Gimnastika

Belçikanın Gent şəhərində bədii gimnastika üzrə ənənəvi "Happy Cup" adlı beynəlxalq turnir keçirilib. Gimnastlarımız arasında ən yaxşı nəticəni 2009-cu il təvəllüdlü gimnastların yarışında çıxış edən Gövhər İbrahimova göstərib. O, həm çoxnövçülükdə, həm də iplə kompozisiyasına görə qızıl medal qazanıb. Bu yaş qrupunda yarışan Məryəm Əliyeva isə çoxnövçülükdə 6-cı yeri tutub. Növbəti qızıl medalların sahibi Kamilla Seyidzadə olub. O, 2007-ci il təvəllüdlü gimnastlar arasında fərqlənərək, həm çoxnövçülük, həm də topla yarışlarda fəxri kürsünün 1-ci pilləsinə yüksəlib.

* * *

Azərbaycanın akrobatika gimnastları İsraildə keçirilən Avropa çempionatında iştirak ediblər. Gənclər yaş qrupunda kişi cütlüyü tərkibində mübarizə aparan Murad Rəfiyev və Daniel Abbasov dinamik hərəkətlər üzrə final yarışlarında bütün rəqiblərini qabaqlayaraq Avropa çempionu adını qazanıblar. Cütlük daha əvvəl çoxnövçülükdə gümüş, balans hərəkətlərində isə bürünc medala sahib olub.

qadın cüdoçular arasında Ukraynanın mütləq çempionunu müəyyənləşdirmək üçün yarışan təmsilçimiz İrina Kindzerska birinci yeri tutub. İdmançımız bununla ardıcıl üçüncü dəfə Ukraynanın mütləq çempionu olub.

* * *

Kamerunda cüdo üzrə Afrika açıq kuboku yarışı təşkil edilib. Beynəlxalq turnirdə ölkəmizi 5 qadın cüdoçu təmsil edib. Təmsilçilərimizdən Leyla Əliyeva (48 kq) və Larisa Florian (57 kq) bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıb. Digər cüdoçumuz, 52 kq çəki dərəcəsində yarışan Gültac Məmmədəliyeva yalnız finalda uduzaraq ikinci yeri tutub. Aişə Qurbanlı (48 kq) və İçinxorloo Munxtsedev (57 kq) isə bürünc medala layiq görülüblər.

* * *

Macarıstanda yeniyetmələr arasında cüdo üzrə Avropa kuboku turniri keçirilib. Azərbaycanın 7 idmançısının iştirak etdiyi Avropa kuboku yarışlarında 31 ölkədən 500-dən çox cüdoçu mübarizə aparıb. Təmsilçilərimizdən Nurlan Kərimli (50 kq) qızıl medala layiq görülüb. Digər

Karateçilərimiz Macarıstan, İtaliya, Şotlandiya və Almaniya komandalarına qalib gələrək qızıl medala layiq görülüblər.

* * *

İranın Gülüstan şəhərində keçirilən "Golestan Cup" beynəlxalq turnirində Azərbaycan karateçiləri uğurla çıxış ediblər. "Qaraqaplan" klubunun məşqçisi Orxan Şabanovun rəhbərliyi altında mübarizə aparan komandamız 10 medal qazanıb. Belə ki, müxtəlif yaş qruplarında Tural Ələkbərli (67 kq) və Ümid Əsgərov (30 kq) qızıl, Nicat Kərimli (57 kq), Nihat Kərimzadə (55 kq), İsfəndiyar Novruzov (30 kq), Yavərbəy Abdullayev (+70 kq) gümüş, Vahid Həsənov (35 kq), İkram Babayev (55 kq), Mircəlal Ələsgərov (60 kq) və Aydın Fərzəli (52 kq) bürünc medal qazanıblar.

* * *

Azərbaycan karateçiləri Belçikanın Lyej şəhərində keçirilən beynəlxalq turnirdə 2 medal qazanıblar. Təmsilçilərimiz - Suada Kərimova (16-17 yaşlı gənclər, kumite 47 kq) və Neda Rezai (böyüklər, kata) bürünc mükafata sahib olublar.

## Alpaqut Turan döyüş sənəti

Bakıda "Sərhədçi" İdman Olimpiya Mərkəzində alpaqut Turan döyüş sənəti üzrə ikinci dünya çempionatı keçirilib. Yarışda 24 ölkədən 500-dən çox idmançı alpaqut döyüş sənətinin beş növü - aypara, batur, caymaz, qurşaq və kaçut üzrə mübarizə aparıb. Azərbaycan bu turnirdə 200-dən çox idmançı ilə təmsil olunub. Üç gün davam edən dünya çempionatının yekun nəticələrinə görə, Azərbaycan komandası ümumi hesabda birinci yeri tutub. Türkiyə komandası ikinci, İran alpaqutçuları isə üçüncü yerə layiq görülüblər.

## Güllə atıcılığı

Azərbaycanın güllə atıcıları Tbilisi açıq çempionatında mübarizə aparıblar. Komandamızın üzvlərindən Nigar Nəsirova 569 xalla böyüklərin yarışında çempionatın qalibi olub. Ruslan Lunyov ikinci, paralimpiyaçı Kamran Zeynallı isə üçüncü yeri tutublar. Komandamız gənclərin yarışında da uğur əldə edib. Təmsilçimiz Vladislav Kalmikov 10 metr məsafəyə atəşaçma yarışında 556 xalla gümüş medala layiq görülüb.

* * *

Tbilisidə Şota Kveliaşvilinin xatirəsinə həsr olunmuş güllə atıcılığı üzrə beynəlxalq turnirdə idmançılarımız

## Qılıncoynatma

Azərbaycan qılıncoynadanı Zərifə Hüseynova Bolqarıstanın paytaxtı Sofiyada keçirilən "European Cadet Circuit" turnirində 14 yaşadək yeniyetmə sablyaçı qızların şəxsi yarışında gümüş medala sahib olub. Qrup mərhələsində bütün rəqiblərini məğlub edən Z.Hüseynova 6 qələbə qazanaraq otuzikidə bir finala vəsiqəni təmin edib. Ardıcıl qələbələr qazanan idmançımız finalda macarıstanlı rəqibinə uduzaraq gümüş medala layiq görülüb.

## Şahmat

Türkiyənin Mersin şəhərində keçirilən şahmat festivalının A turnirində təmsilçimiz ikinci yeri tutub. Sumqayıt şahmatçısı Misrətdin İsgəndərov 9 turdan 7 xal toplayaraq gümüş medal qazanıb. Onunla eyni xala malik olan özbəkistanlı Nodirbek Abddursattorov əlavə göstəricilərə görə təmsilçimizi qabaqlayaraq turnirin qalibi olub.

* * *

Antalyada keçirilən A kateqoriyalı açıq turnirdə şahmatçımız uğurla çıxış edib. Komandamızın üzvü Rəsul İbrahimov 9 turdan 7 xal toplayaraq ikinci yeri tutub. Onunla eyni xal toplayan gürcüstanlı Konstantin Şanava əlavə göstəricilərə görə turnirin qalibi olub.

# N o y a b r

## Ayın yekunu Olimpiya dünyası nın təqdimatında

* * *

Lüksemburqda "Aurore cup 2019" bədii gimnastika üzrə beynəlxalq turnir keçirilib. Lüksemburqla yanaşı, Almaniya, Macarıstan, Ukrayna və digər ölkələrdən 12 klubun iştirak etdiyi müxtəlif yaş kateqoriyalı 312 gimnastın qatıldığı yarışmada Azərbaycanı balaca gimnastımız - Mina Abbasova təmsil edib. Bu mötəbər idman tədbirində də yeni proqramla iştirak edən gimnastımız topla ifasına görə ikinci yerə çıxaraq ümumi hesabda yarışın gümüş medalını qazanıb.

* * *

Almaniyanın Kotbus şəhərində "Turnier der Meister" adlı dünya kuboku yarışları keçirilib. Turnirdə ölkəmizi kişi idman gimnastikası üzrə yığma komandamızın üzvü Murad Ağarzayev təmsil edib. Gimnast ən yaxşı nəticəni dayaqlı tullanma alətində göstərərək, 13-cü yerdə qərarlaşıb.

## Cüdo

Rusiyanın İjevsk şəhərində 23 yaşadək cüdoçular arasında Avropa birinciliyi keçirilib. Qitə birinciliyində 33 ölkədən 235 idmançı (135 kişi, 100 qadın) mübarizə aparıb. Ölkəmiz yarışda 9 cüdoçu ilə təmsil olunub. Komandamız yarışı 2 medalla başa vurub. Təmsilçilərimizdən Rəşid Məmmədəliyev (73 kq) qızıl, Nurlan Osmanov (66 kq) isə gümüş medala sahib çıxıb.

* * *

Avstraliyanın Pert şəhərində cüdo üzrə açıq Okeaniya turniri keçirilib. 66 ölkədən 310 cüdoçunun mübarizə apardığı yarışda ölkəmiz 9 idmançı ilə təmsil olunub. Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya verən yarışda təmsilçilərimizdən Nicat Şıxəlizadə ikinci yeri tutub. Komandamızın üzvü Murad Fətiyev (81 kq) isə turnirin bürünc medalına sahib çıxıb.

* * *

Cüdo üzrə açıq mütləq Ukrayna çempionatı keçirilib. Dnepr şəhərində keçirilən yarışda Azərbaycan idmançıları da iştirak ediblər. Ağır çəkili

idmançılarımızdan Əlirza Şıxəlizadə (81 kq) gümüş, Hüseyn Allahyarov (50 kq) və Aydın Rzayev (60 kq) bürünc medal əldə ediblər.

* * *

Yaponiyanın Osaka şəhərində cüdo üzrə "Böyük dəbilqə" beynəlxalq turniri keçirilib. Yarışda 86 ölkənin idmançıları ilə yanaşı, Azərbaycan cüdoçuları da mübarizə aparıblar. Kişilərin mübarizəsində 100 kq çəki dərəcəsində yarışan təmsilçimiz Elmar Qasımov Fransa, Almaniya, Rusiya və Yaponiya cüdoçularını məğlub edərək finala çıxıb. Həlledici qarşılaşmada yaponiyalı Haqa Ryunosukeyə uduzan cüdoçumuz nüfuzlu yarışın gümüş medalını qazanıb.

## Güləş

Çeboksarı şəhərində qadın güləşi üzrə açıq Rusiya kuboku yarışları keçirilib. İki gün davam edən turnirdə ölkəmizi 7 güləşçi təmsil edib. Təmsilçilərimizdən Tatyana Omelçenko (62 kq) gümüş medal qazanıb. Onunla eyni çəkidə çıxış edən Jalə Əliyeva isə üçüncü yeri tutub. Yığmamız komanda hesabında üçüncü olub.

## Taekvondo

Koreyanın Muju şəhərində taekvondo üzrə "Koreya səfiri" kuboku yarışı keçirilib. Koreya Respublikasının Azərbaycandakı səfirliyinin dəstəyi ilə yarışda iştirak edən Məmməd Abdullayevin yetirmələrindən Səyyad Dadaşov (51 kq) və Yaşar Məmmədli (63 kq) qızıl medal qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Digər idmançımız Riyad Şirəliyev (55 kq) isə dünya birinciliyinin bürünc medalına sahib olub.

## Karate

Karateçilərimiz Macarıstanın Monor şəhərində vodokay karate üzrə 47-ci Avropa Kubokunda uğurla çıxış ediblər. İdmançılarımız fərdi yarışlarda 2 qızıl, 3 gümüş və 1 bürünc medal, komanda turnirində isə qızıl medal qazanıblar. Yığmamız fərdi yarışlarla yanaşı, komanda turnirində də fərqləniblər.




* * *

Moskvada tarixdə ilk dəfə bütün karate növləri üzrə dünya çempionatı keçirilib. 40-dan çox ölkədən minə yaxın idmançının iştirak etdiyi yarışda millimiz uğurlu çıxışı ilə yadda qalıb. Çempionatda 37 kq çəki dərəcəsində yarışan Sənan Xəlilli bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Digər idmançımız Əlisəfər Əmirov (39 kq) gümüş medalla kifayətlənib. Millimizin üzvləri Allahyar Əhmədov (25 kq), Qeys Bağırzadə (32 kq), Rüfət İsayev (57 kq) və Lalə Mikayılova (64 kq) dünya çempionatını üçüncü pillədə başa vurublar.

## Ağırlıqqaldırma

Belarusun Qrodno şəhərində ikiqat Olimpiya çempionu Aleksandr Kurloviçin xatirəsinə həsr olunmuş ağırlıqqaldırma üzrə nüfuzlu beynəlxalq "Alexander Cup" turniri keçirilib. Yarışda 18 ölkədən 80 atlet medallar uğrunda mübarizə aparıb. Yarışda ölkəmizi Boyanka Kostova və Nailxan Nəbiyev təmsil edib. İlk yarış günündə Boyanka Kostova 59 kq çəki dərəcəsində qüvvəsini sınayıb. Atletimiz ümumilikdə 215 kiloqram (95+120) nəticə göstərərək turnirin qalibi olub. Yarışda iştirak edən digər təmsilçimiz Nailxan Nəbiyev isə 96 kq çəki dərəcəsində ümumilikdə 326 kq (145+181) nəticə ilə gümüş medala sahib çıxıb.

uğurla çıxış edərək iki medal qazanıblar. 10 metr məsafəyə pnevmatik tapançadan atəşaçma yarışlarında təmsilçimiz Ruslan Lunyov 580 xalla 1-ci yeri tutub. Komandamızın digər üzvü Nigar Nəsirova 558 xalla 3-cü pillədə qərarlaşıb.

## Ciu-citsu

Azərbaycan idmançıları Tbilisidə keçirilən ciu-citsu üzrə dünya çempionatında 20 medal qazanıblar. Çempionatda ölkəmizi Azərbaycan Ciu-citsu Federasiyasının kontakt ciu-citsu üzrə 21 üzvü təmsil edib. Azərbaycan komandası ilk dəfə iştirak etdiyi çempionatda 8 qızıl, 8 gümüş, 4 bürünc medal qazanıb.

* * *

Azərbaycan idmançıları Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Abu-Dabidə keçirilən ciu-citsu üzrə dünya çempionatında iki qızıl və bir gümüş medal qazanıblar. Mundialda ölkəmizi Tehran Seyidov, Elşən İbişov və Emil Qurbanov təmsil ediblər. Hər üç idmançımız finaladək irəliləməyi bacarıb. E.İbişov və E.Qurbanov finalda rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. T.Seyidov isə finalda rəqibinə uduzaraq gümüş medalla kifayətlənib. 32 ölkənin iştirak etdiyi çempionatda Azərbaycan millisi 3 medalla 9-cu pillədə qərarlaşıb.

## Sumo

Azərbaycan idmançısı Camal Feyziyev Rusiyanın Dzerjinsk şəhərində sumo üzrə Avropa kuboku turnirində qızıl medal qazanıb. 115 kq-dan yuxarı çəki dərəcəsində mübarizə aparan sumoçumuz birinci və ikinci görüşdə rusiyalı idmançıları məğlub edərək finala vəsiqə qazanıb. C.Feyziyev final mərhələsində Ukrayna təmsilçisini üstələyərək Azərbaycan bayrağını zirvələrə yüksəldib.

## Mas-reslinq

Azərbaycan idmançıları Polşanın Pabyanitse şəhərində mas-resling üzrə dünya kuboku turnirində iştirak ediblər. Yarışda ölkəmizi Cahangir Yaqubov (105 kq) və Camal Feyziyev (+125 kq) təmsil ediblər. Hər iki idmançımız finala qədər irəliləməyi bacarıblar. Lakin hər iki idmançımız finalda məğlub olaraq gümüş medalla kifayətləniblər.

## Bodibildinq

İtaliyanın paytaxtı Romada bodibildinq üzrə nüfuzlu açıq "Diamond Cup" beynəlxalq Avropa turniri keçirilib. Mens fizik yarışlarında ölkəmizi təmsil edən İmaş Qulizadə möhtəşəm çıxışı ilə ikinci olub.

## Badminton

Azərbaycan badmintonçusu Edi Reski Dviçayo Kamerunun paytaxtı Yaunde şəhərində keçirilən "Cameroon International 2019" turnirində qızıl medal qazanıb. Yarışın 1 nömrəli favoriti sayılan E.Dviçayo mübarizəyə səkkizdəbir finaldan başlayıb. Ardıcıl olaraq Əlcəzair, Nigeriya və Belçika idmançılarına qalib gələn təmsilçimiz finala yüksəlib. E.Dviçayo turnirin finalında Avstriya yarışlarında idmançısı Luka Vraberlə qarşılaşıb. Üç set davam edən görüşün yekununda Edi rəqibi üzərində 2:1 hesablı qələbə qazanıb.



## İsveçrənin Lozanna şəhərində Beynəlxalq Qılıncoynatma Federasiyasının konqresi keçirilib

İyirmi ildən sonra Beynəlxalq Qılıncoynatma Federasiyasının ilin yekunlarına həsr olunan konqresi Beynəlxalq Olimpiya Komitəsinin yarandığı Lozanna şəhərində baş tutub.

300-dən artıq nümayəndə heyətinin iştirak etdiyi toplantı "SwissTech Convention" mərkəzində keçirilib.

Beynəlxalq Qılıncoynatma Federasiyasının prezidenti Əlişir Usmanov tədbir iştirakçılarını salamladıqdan sonra Beynəlxalq Olimpiya Komitəsinin rəhbəri Tomas Bax FİE prezidentinə olimpiya dəyərlərini əks etdirən xüsusi mükafatı təqdim edib.

Konqresdə, həmçinin 2021-ci ildə dünya çempionatının Misirdə keçirilməsi ilə bağlı qərar qəbul edilib. Eyni zamanda, 2022-ci ildə keçirilməsi nəzərdə tutulan bütün çempionatların ev sahibi ölkələrinin namizədliyi prosesinə başlanılıb.

Konqresdə ölkəmizi Azərbaycan Qılıncoynatma Federasiyasının baş katibi Vasif Məmmədov təmsil edib.

Qeyd edək ki, hazırda Beynəlxalq Qılıncoynatma Federasiyasına 157 ölkə üzvdür.

## "Judo Club 2012"nin yetirmələri beynəlxalq turnirdə fərqləndilər

Sumqayıt Olimpiya İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş cüdo üzrə VIII ənənəvi beynəlxalq turnir keçirilib. Yarışın keçirilməsində əsas məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsini yad etmək, idmançılar arasında dostluq əlaqələrinin yaradılması və gücləndirilməsi, cüdo idman növünün təbliği və inkişafı, idmançıların idman ustalığının artırılmasından ibarət olub.




2006-2008-ci illər təvəllüdlü oğlan və qızlar arasında təşkil olunan yarışda "Judo Club 2012"nin yeniyetmə cüdoçuları da qüvvələrini sınayıblar. Klubun yetirmələri turnirdə uğurla çıxış edərək 1 qızıl və 1 gümüş medala layiq görülüblər. Qızıl medalı klubun aktivinə Ramazan Əhmədov (+73 kq) yazdırıb. 60 kq çəki dərəcəsində qüvvəsini sınayan klubun digər yetirməsi Mehdi Cəfərov isə yalnız finalda məğlub olaraq gümüş medala sahib çıxıb.

## Aikido Mərkəzində respublika seminarı təşkil olunacaq

Dekabrın 14-15-də Aikido Mərkəzində Azərbaycan Aikido Federasiyasının (AAF) prezidenti sensey Fərhad Əsgərovun rəhbərliyi altında respublika seminarı keçiriləcək.



Seminarda Gəncə, Oğuz, Şəki, Göyçay, Lənkəran və Astara şəhər və rayonlarından 200-ə yaxın idmançı və məşqçinin iştirakı gözlənilir.

Qeyd edək ki, seminar Gənclər və İdman Nazirliyi və AAF-ın birgə təşkilatçılığı ilə keçirilcək.

## Karate yenidən Yeniyetmələrin Yay Olimpiya Oyunlarının proqramında

Beynəlxalq Olimpiya Komitəsinin (İOK) İcraiyyə Şurası karatenin 2022-ci ildə Yeniyetmələrin Yay Olimpiya Oyunlarının proqramına yenidən daxil edilməsi ilə bağlı qərar qəbul edib. Seneqalın paytaxtı Dakarda Yeniyetmələrin Yay Olimpiya Oyunlarında karatenin kumite yarışları oğlan və qızların hər birində 3 çəki dərəcəsi üzrə keçiriləcək. İştirakçıların sayı isə 8-dən 12-dək artırılacaq. Yarış oktyabrın 21-dən noyabrın 15-dək keçiriləcək. Xatırladaq ki, karate ilk dəfə 2018-ci ildə Buenos-Ayresdə Yeniyetmələrin Olimpiya Oyunlarının proqramında yer alıb. Keçən yarışda hər çəki dərəcəsində 8 idmançı iştirak etmişdi.

## "Olimpiya Odisseyası" layihəsi çərçivəsində növbəti görüş

Cəlilabad rayonundakı Heydər Əliyev Mərkəzində "Azərbaycanın Olimpiya Odisseyası" layihəsi çərçivəsində Olimpiya çempionu Elnur Məmmədli ilə görüş keçirilib. Tədbirin məqsədi gənclər arasında sağlam həyat tərzinin, hər bir yaş kateqoriyası üçün bədən tərbiyəsi və idmanın əhəmiyyətinin, Olimpiya prinsiplərinin, uşaq, yeniyetmə və gənclərin cəmiyyətə sağlam inteqrasiyasının təbliği olub.

Tədbirdə çıxış edən Cəlilabad Rayon Gənclər və İdman İdarəsinin rəisi Elçin Hüseynov ölkəmizdə, o cümlədən rayonda həyata keçirilən gənclər siyasəti və idman sahələrində əldə olunan nailiyyətlər barədə danışıb.

Ölkəmizdə aparılan uğurlu idman siyasəti nəticəsində əldə olunan uğurlardan, gənclər arasında sağlam həyat tərzinin təbliği istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edən edən E.Hüseynov bildirib ki, Prezident İlham Əliyevin Azərbaycanda idmanın inkişafı ilə bağlı yürütdüyü siyasətin qayəsi gənclərin sağlam mənəvi və mədəni mühitdə böyüməsi ilə yanaşı, onların müasir düşüncə tərzinə də malik olmalarının təmin edilməsidir.

Gənclər və İdman Nazirliyinin Strateji planlaşdırma və beynəlxalq standartların tətbiqi sektorunun müdiri Məryəm Qafarzadə ölkəmizdə gənclər siyasətinin uğurla həyata keçirilməsi nəticəsində əldə olunan uğurlar barədə məlumat verib. O, gənclərin məşğulluğu, yaradıcı təşəbbüslərini reallaşdırılması, gənclər arasında sağlam həyat tərzinin təbliği istiqamətində həyata keçirilən tədbirlərdən söz açıb, onları zərərli vərdişlərlə mübarizəyə çağırıb.

Sonra çıxış edən Milli Olimpiya Komitəsinin nümayəndəsi Nazir Rəhimov və "İdmançılar" İctimai Birliyinin baş katibi Fərhad Acalov ölkəmizdə idman sahəsində aparılan işlər barədə məlumat veriblər, gənclər arasında Olimpiya dəyərlərinin təbliğində maarifləndirmənin vacibliyini vurğulayıblar.

Layihə müəllifi, kinorejissor Arzu Qulamov çıxışında "Elin nuru" filminin çəkilişləri zamanı baş verən maraqlı anlarla bağlı xatirələrini bölüşüb, "Azərbaycanın Olimpiya Odisseyası"nın qəhrəmanları olan çempionlarımız haqqında filmlərin ərsəyə gəlməsində xidmətləri olanlara təşəkkürünü bildirib.

Cəlilabad Rayon Polis Şöbəsinin əməliyyat işləri üzrə rəis müavini, polis polkovnik-leytenantı Rövşən Quliyev müasir dünyada cəmiyyəti ən çox narahat edən, faciəvi nəticələrə gətirib çıxaran narkomaniya və narkobiznesin insanların sağlamlığına, mənəviyyatına mənfi təsirlərindən danışıb, bunun dünya iqtisadiyyatına da ciddi zərbə vurduğunu qeyd edib. Ölkəmizdə cinayətkarlıqla qətiyyətli mübarizənin əsasının ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu deyən R.Quliyev hazırda bu siyasətin dövlətimizin başçısı İlham Əliyev tərəfindən prioritet istiqamət kimi diqqətdə saxlanıldığını vurğulayıb.

Sonra 2008-ci il Pekin Olimpiadasının cüdo yarışlarında qızıl medal qazanan Elnur Məmmədlidən bəhs edən "Elin nuru" filmi nümayiş etdirilib.

Filmin nümayişindən sonra çıxış edən Olimpiya çempionu Elnur Məmmədli ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafı üçün hər cür şərait yaradıldığını deyib. Bildirib ki, dövlətin yüksək diqqət və qayğısı nəticəsində idmanın bütün növləri sürətlə inkişaf edir. O, həmçinin idman həyatındakı maraqlı anları iştirakçılarla bölüşüb və onların suallarını cavablandırıb.

## Azərbaycanın ən güclü sumoçuları müəyyənləşdi

Dekabrın 8-də Abşeron Olimpiya İdman Kompleksində Sumo üzrə Azərbaycan çempionatı keçirilib. Yeniyetmələr, gənclər və böyüklər arasında keçirilən yarışda paytaxtla yanaşı, Sumqayıt, Quba, Xudat, Şabran, Siyəzən, Cəlilabad, Lənkəran, Astara, Şəmkir və digər bölgələri təmsil edən 300-ə yaxın idmançı iştirak edib. Müxtəlif çəki dərəcələri üzrə keçirilən yarışın qaliblər Gənclər və İdman Nazirliyi və Azərbaycan Sumo Federasiyası tərəfindən diplom və medallarla təltif olunublar.




Yarışın sonunda Azərbaycan Sumo Federasiyasının, Avropa Sumo Federasiyasının vitse-prezidenti Samir Abdullayev çempionatla bağlı təəssüratlarını "Olimpiya dünyası" qəzeti ilə bölüşüb. Təcrübəli mütəxəssis çempionatda bölgə idmançılarının fəallığını qeyd edərək, sumonun kütləvilik qazandığını bildirib. "Bütün yaş qrupları üzrə keçirilən sumo üzrə Azərbaycan çempionatı ilə 2019-cu ilə yekun vurduq. İlin son yarışında yetərincə güclü sumoçular qüvvələrini sınadılar. Yeniyetmə, gənclər və kişilər arasında keçirilən yarışda yeni simalar üzə çıxdı. Çempionatın nəticələrinə əsasən, yığma komandanın heyəti formalaşdı. Sevindirici haldır ki, yarışda mükafat qazanan idmançılar arasında paytaxtla yanaşı, bölgələri təmsil edən sumoçular da yer alıblar. Artıq hər il bölgə idmançılarının sayında artım müşahidə edirik. Siyəzən, Şəki və Oğuzda region nümayəndələrimiz var. Onlar həmin bölgələrdə sumonun kütləviliyinə və inkişafına xidmət edirlər. Gələn il ilk sınağımız Macarıstanda keçiriləcək Avropa kuboku olacaq. Yanvar ayında təşkil olunacaq bu yarış gənclər və böyüklər arasında keçiriləcək. Avropa kubokunda təxminən 20-ə yaxın idmançımız qüvvəsini sınayacaq. Azərbaycan çempionatında mükafat qazanan idmançılar da bu yarışlarda iştirak etmək hüququ əldə edəcəklər. Gələn il bizim üçün ən mötəbər yarış isə aprel ayında paytaxtımızda təşkil olunacaq sumo üzrə Avropa çempionatıdır. Bu mötəbər yarışda 20 ölkədən 300-ə yaxın idmançı paytaxtımızda medallar uğrunda mübarizə aparacaq. Kişilər arasında hər çəki dərəcəsində yüksək səviyyəli idmançılarımız var. Lakin qadın sumoçular arasında müəyyən çətinliklərimiz var. Çalışacağıq ki, çempionata qədər bu problemləri aradan qaldıraq. Bundan əlavə sumo idman növü rəsmi olaraq Beynəlxalq Olimpiya Komitəsi tərəfindən tanınır. İnanıram ki, gələcəkdə sumo güləşini biz Olimpiya Oyunlarının proqramında görəcəyik", - deyə Samir Abdullayev bildirib.

**İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi**

# Azərbaycanda İKT-nin inkişaf dinamikası uğurlu gələcəkdən xəbər verir

***Müasir sivilizasiyanın dayanıqlı inkişafını təmin edən başlıca amillərdən biri qabaqcıl texnoloji komponentlərin tətbiqidir. Belə ki, iqtisadiyyatın innovativ xarakterinə, qabaqcıl texnologiyalar sayəsində sənaye və kənd təsərrüfatının yüksək inkişafına, dərin biliklərə, yüksək keyfiyyətli təhsil və xidmətlərə, əhalinin maddi rifahının yüksəlməsinə, gəlirlərinin artmasına və s. söykənən post-sənaye cəmiyyətində İKT-nin müstəsna əhəmiyyəti vardır. Yəni cəmiyyətin inkişafı, onun daxilində baş verən müsbət tendensiyalar bilavasitə yüksək texnologiyaların tətbiqi və onların cəmiyyətin xidmətinə yönəldilməsi ilə müşayiət olunur.***

Dünyanın ən sürətli inkişaf edən ölkələrindən biri kimi xarakterizə edilən Azərbaycanda sosial-iqtisadi sahədə qazanılan nailiyyətlər beynəlxalq miqyasda da yaxından izlənməkdə, diqqətlə öyrənilməkdədir. Bu sahədə araşdırma aparan təşkilatların, ekspertlərin yekun qənaəti belədir ki, Azərbaycan iqtisadi sferada uğurlarla zəngin bir yolda irəliləyir və artıq özünəməxsus cəhətləri olan inkişaf modelinin əsasını qoyub.

Azərbaycanda informasiya və telekommunikasiyanın (İKT) inkişafı istiqamətində görülmüş tədbirlər bir sıra perspektiv irəliləyişlərə yol açıb. İnformasiya-kommunikasiya texnologiyaları yüksək göstəricilərə malik inkişaf etmiş iqtisadiyyatın mühüm tərkib hissəsidir. İKT sektoruna telekommunikasiya sənayesi də daxil olmaqla, genişçeşidli istehsal və xidmət sektorları



daxildir. Biznes subyektləri və istehlakçılar arasında kommunikasiya və məlumat mübadiləsinə şərait yaratmaqla, İKT cəmiyyətin, dövlətin və iqtisadiyyatın inkişafında mühüm rola malikdir. İKT-nin geniş miqyasda tətbiqi yeni iş yerlərinin yaradılmasına və məhsuldarlığın artmasına ciddi təsir göstərir. Xüsusən də inkişaf etməkdə olan ölkələrdə İKT-nin tətbiqi ümumdaxili məhsulun artımına təkan verən mühüm amilə çevrilmişdir. İKT yeni iş yerlərinin yaradılmasında əsas rola malikdir. Aparılan təcrübələr göstərir ki, İKT-də yaradılan hər bir yeni iş yeri iqtisadiyyatın digər sektorlarında 2-4 yeni iş yerinin yaranmasına təkan verir. Bu sektorda yaranan yeni iş yerləri üzrə əməkhaqqı orta əməkhaqqı səviyyəsindən yüksək olur.

İKT bacarıqlarının inkişafı və təhsil sistemində İKT-dən istifadə insanların həyat keyfiyyətini və iqtisadiyyatın məhsuldarlığını yüksəltməklə, qlobal miqyasda Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin daha da artmasına zəmin yaradır.

Təhsil sistemində İKT-dən səmərəli istifadənin təmin edilməsi üçün təhsil informasiya sisteminin formalaşdırılması müsbət nəticələr verəcəkdir. Ümumilikdə, təhsil informasiya sistemi dedikdə, əlaqəli, qarşılıqlı istifadə edilə bilən və təhsil müəssisələrində tədrisin səmərəli təşkili ilə onların daha effektiv idarə edilməsinin dəstəklənməsinə kömək edən komponentlərin məcmusu kimi başa düşülür. Sistemin məqsədi təhsil müəssisələri arasındakı rabitə əlaqəsinin asanlaşdırılması, elektron hökumət üçün uyğunluğun təmin edilməsi və digər xidmətləri özündə ehtiva edir.

## “Azərkosmos”un xidmət ixracı ildən-ilə artır

İnformasiya cəmiyyətinə keçidin təmin edilməsi, innovasiya yönümlü və biliyə əsaslanan iqtisadiyyatın qurulması, dövlət və yerli özünüidarəetmə orqanlarında İKT-nin tətbiqi və elektron xidmətlər əsas şərtdir. Rəqabətqabiliyyətli və ixrac yönümlü İKT potensialının gücləndirilməsi, yüksək ixtisaslı mütəxəssislərin və elmi kadrların hazırlanması prioritet vəzifələrdəndir.

Bu gün kosmik sənayenin inkişafı ilə bağlı müvafiq tədbirlər həyata keçirilir. Telekommunikasiya peyklərinin geostasionar orbitə çıxarılması nəticəsində etibarlı peyk rabitəsi təmin ediləcək və bununla ölkənin informasiya təhlükəsizliyi gücləndirilir. Telekommunikasiya şəbəkəsində yeni texnologiyaların tətbiqi genişləndirilir. Milli radio və televiziya proqramlarının peykdən paket yayımı təşkil edilir.

Bu sahədə ildən-ilə artan uğurlar rəqəmlərdə də öz əksini tapıb.

2018-ci il sentyabrın 26-da Azərbaycanın üçüncü peyki olan “Azerspace-2” telekommunikasiya peyki Fransız Qvianasında yerləşən kosmodromdan - Qviana Kosmik Mərkəzindən uğurla orbitə buraxılıb. Bundan əvvəl daha iki peyk buraxılıb. “Azerspace-2” ABŞ-ın “Space Systems/Loral” (SSL) şirkəti tərəfindən yüksək etibarlı “SSL 1300” peyk platforması əsasında istehsal olunub. 2018-ci il dekabrın 18-də bu peyk özünün sınaq orbitinə çatıb və burada təxminən iki ay müddətində test istismarı keçdikdən sonra özünün artıq bir qədər fərqli orbital mövqeyi - 45 dərəcə şərq uzunluğu mövqeyində olan son geostasionar orbitində yerləşəcək. Peykin dəyəri 190 milyon dollara yaxındır. Onun fəaliyyət müddəti təxminən 20 il təşkil edəcək və ölkə iqtisadiyyatına 400 milyon dollar gəlir gətirə bilər. İqtisadi aspekti ilə yanaşı, “Azerspace-2”nin orbitdə fəaliyyəti ölkənin informasiya təhlükəsizliyini və müstəqilliyini də təmin edir.

Qısa müddət ərzində “Azerspace-2”nin xidmət dairəsi genişlənərək və bir sıra Avropa ölkələrini, həmçinin Mərkəzi və Cənub-Qərbi Asiya, Yaxın Şərq və Tropik Afrikanı əhatə etməyə başlayıb. Peyk regionda dövlət və özəl qurumlara şəbəkə xidmətləri sahəsində artmaqda olan tələbləri qarşılamaq üçün yüksək texniki imkanlar, əlverişli əhatə zonası və keyfiyyətli xidmət təklif edəcək. Yeni peyk regional peyk xidmətləri bazarında artıq etibarlı və özünü təsdiq etmiş peyk xidmətləri operatoru mövqeyi qazanıb. Yeni peyk “Azərkosmos”a ABŞ, BƏƏ və Tanzaniyadan olan yeni müştərilərə xidmət göstərmək imkanı yaradıb.

Yanvar-sentyabr aylarında “Azərkosmos” ASC tərəfindən 24 ölkəyə 30,2 milyon ABŞ dolları dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac olunub. Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) “İxrac icmalı”nın oktyabr sayında bildirilir.

“Azərkosmos”un xidmət spektrinin və fəaliyyət coğrafiyasının genişləndirilməsi ilə yanaşı, həm də birinci telekommunikasiya peyki - “Azerspace-1” peykinin orbitdəki ehtiyatı hesab olunur. Bu da öz növbəsində, “Azərkosmos”a bugünədək ehtiyat peykin olmaması səbəbindən iştirak edə bilmədiyi irihəcmli beynəlxalq tenderlərdə iştirak etmək imkanı yaradır. Bir sözlə, “Azerspace-2” “Azərkosmos” ASC-nin təbiətinə görə kifayət qədər mühafizəkar və yüksək rəqabətli peyk xidmətləri bazarındakı dəyər təklifini və mövqeyini gücləndirir.

“Azerspace-2” peyki hələ orbitə buraxılmazdan əvvəl onun tutumlarının 46 faizi dünyanın peyk xidmətləri üzrə aparıcı şirkəti olan “Intelsat” şirkətinə satılmışdı. Bu müqavilə üzrə ödənişlər layihə dəyəri və maliyyələşmə xərclərinin 60 faizinin geri qaytarılmasını təmin edirdi. Hazırda peykin qalan tutumlarının satışı ilə əlaqədar digər ölkələrlə aktiv biznes danışıqları aparılır. Azərbaycan üçüncü peykini kosmosa buraxmaqla dünya kosmik klubunda öz imicini xeyli möhkəmləndirmiş oldu, desək, yanılmarıq.

2018-ci ildə “Azərkosmos” ASC tərəfindən dünyanın 24 ölkəsinə 25,6 milyon dollarlıq xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac olunub. Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) “İxrac İcmalı”nın yanvar sayında bildirilir. Hesabata görə, “Azərkosmos” ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 87 faizini təşkil edib. 2017-ci illə müqayisədə ötən il “Azərkosmos” ASC-nin xidmət ixracı 12 faiz artıb. ASC-nin keçən il xidmət ixracı həyata keçirdiyi əsas ölkələr Fransa, Malayziya, BƏƏ, Almaniya, Gürcüstan və digərləri olub.

“Azərkosmos” ASC bu ilin birinci yarısında 20 ölkəyə telekommunikasiya və optik peyk xidmətləri təqdim etməklə 21,2 milyon ABŞ dolları gəlir əldə edib. Bu rəqəm ötən ilin analoji dövrünün göstəricisindən 47 faiz çoxdur. İlin sonuna gəlirlərin 45 milyon dollar olacağı nəzərdə tutulur. Gəlirin 90 faizi peyk xidmətlərinin ixracından əldə olunub. Xidmət ixracının həyata keçirildiyi əsas ölkələr ABŞ, Fransa, Malayziya, Birləşmiş Krallıq, Almaniya və Birləşmiş Ərəb Əmirlikləridir (BƏƏ). Ümumilikdə ilin birinci yarısında əlavə olaraq 9 ölkədən olan yeni müştərilərlə müqavilələr rəsmiləşdirilib. Peyklər vasitəsilə yayımlanan 150-dən çox televiziya və radio kanalının ümumilikdə 20 milyondan artıq auditoriyası var. “Azerspace-2” peykinin bu ilin fevralında baş tutan uğurlu biznes startı ilə “Azərkosmos”

Qeyd olunur ki, “Azərkosmos”un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 88 faizini təşkil edib.

Bu ilin sentyabr ayında isə ASC 20 ölkəyə 2,2 milyon dollarlıq xidmət ixrac edib. “Azərkosmos”un cari ilin yanvar- sentyabr aylarında xidmət ixracı həyata keçirdiyi əsas ölkələr ABŞ, Fransa, Birləşmiş Krallıq, Malayziya və Birləşmiş Ərəb Əmirlikləri olub.

## Beynəlxalq aləmə inteqrasiya prosesi sürətlənir

Son illərdə Azərbaycanda informasiya və kommunikasiya texnologiyalarının tətbiqi məqsədli dövlət proqramlarının və zəruri islahatların icrası nəticəsində ölkəmizin ümumdünya elektron məkanına daha sürətli inteqrasiyası təmin edilmiş, “elektron hökumət”in yaradılması, müasir biliklərə və innovativ ideyalara əsaslanan iqtisadiyyatın təşəkkülü, informasiya təhlükəsizliyi və digər məsələlərə dair mühüm addımlar atılmış, uğurlar əldə olunmuşdur. Bu gün informasiya cəmiyyətinin hüquqi normativ bazasının yaradılması sahəsində də Azərbaycan dövlətinin müsbət təcrübəsi vardır.

Azərbaycan hökuməti informasiya cəmiyyətinin formalaşdırılması və genişləndirilməsində ciddi şəkildə maraqlıdır və bu sahədə olan təşəbbüslərə texniki və maliyyə dəstəyi göstərir. Bu siyasət cəmiyyətin tələblərini, qlobal çağırışları nəzərə almaqla ölkəmizin sosial-siyasi, iqtisadi-mədəni inkişafına, demokratik, hüquqi cəmiyyət quruculuğuna, Azərbaycanın beynəlxalq aləmə inteqrasiya prosesinin sürətləndirilməsinə yönəldilmişdir.

Azərbaycanda İKT-nin inkişaf dinamikası, uğurla həyata keçirilən neft strategiyası nəticəsində ölkəyə olan inamın artması, beynəlxalq qurumlarla uğurlu əməkdaşlıq nümunələri, yüksək texnologiyaya əsaslanan iqtisadiyyatın formalaşması üzrə qarşıya qoyulan vəzifələr, dövlət siyasətinin tərkib hissəsi kimi İKT sahəsinə göstərilən böyük diqqət və qayğı, ölkəmizin yaxın gələcəkdə yüksək texnologiyalar sahəsində böyük uğurlar qazanacağına zəmanət verir.

***Aslan Şirəliyev***

*“Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün”*

**Formula 1**

## “Mersedes” rekord məbləğdə vəsait ödəyəcək

“Mersedes” komandasının rəhbərliyi 2020-ci il mövsümündə Formula 1 çempionatında iştirak üçün rekord məbləğdə vəsait ödəməli olacaq.

Başa çatan mövsümdə alman komandası Konstruktorlar Kubokunda 21 mərhələ üzrə 739 xal toplayıb. Bu, mütləq rekord deyil, amma çempionatda balların bahalaşması nəzərə alındıqda, ödəniləcək məbləğ də tarixdə ən böyük olacaq. Hər xal çempion komandaya 6677 dollara başa gəlir.

Son nəticədə “Mersedes” komandası 6,5 milyon dollar məbləğində vəsait ödəməli olacaq. Üzvlük haqqı qismində ödəniləcək məbləğə görə ikinci yerdə “Ferrari” (3,3 milyon dollar), üçüncü yerdə isə “Red Bull” (2,8 milyon dollar) gəlir.

Növbəti mövsümdə ən az məbləğ ödəyəcək komanda “Williams”dır. Onun çempionata keçirəcəyi vəsaitin miqdarı 560 min dollardır.

## “Racing Point” komandası “Aston Martin” adlanacaq?

Milyarder Lens Strollun sahib olduğu Formula 1 çempionatının “Racing Point” komandası “Aston Martin” adlana bilər. Oğlu Lourens Strollun da “Racing Point” komandasının mükafatçı pilotlarından biri olduğu biznesmen son vaxtlar qiyməti çox sürətlə ucuzlaşan “Aston Martin”in səhmlərinin əldə edilməsi imkanlarını araşdırır. Əgər Lens Stroll avtomobil istehsalçısının nəzarət paketinə sahib ola bilsə, onda Silverstoun komandasının maşınları yaşıl rənglə boyanacaq. Bu addım “Aston Martin”in titullu sponsoru olduğu “Red Bull” komandası üçün ciddi nəticələr doğura bilər.

Lourens Strolla yanaşı Serxio Peresin də çıxış etdiyi “Racing Point” komandası Formula 1-in 2019-cu il mövsümündə 73 xal toplayıb və Konstruktorlar Kubokunda yeddinci yeri tutub.

## Alonso 2021-ci ildə “Reno”ya qayıda bilər

Formula 1-in sabiq pilotu, hazırda “Sky Sports”un eksperti Martin Brandl ikiqat dünya çempionu Fernando Alonsonun gələcək karyerası barədə fikirlərini bölüşüb. Xatırladaq ki, ispan pilot Formula 1-i 2018-ci il mövsümü başa çatanda tərk edib, lakin tez-tez 2021-ci ildə yeni texniki reqlament qüvvəyə minəndə geri qayıdacağından danışır. Brandlın fikrincə, belə variant mümkündür və Fernando “Reno” ilə müqavilə imzalayacaq.

“Marca” nəşri Brandlın bu sözlərini sitat gətirib: “Fernando Alonso təsdiq edib ki, 2021-ci ildə Formula 1-in start düzülüşünə qayıtmaq istəyir. Çox güman, bu, “Reno” komandası olacaq. Hazırda Formula 1 diqqətini gənc pilotlar üzərində cəmləşdirib, lakin Lekler və Ferstappenə bənzəyən pilotlar o qədər də çox deyil. Hətta “Red Bull”un gənclər proqramı da yavaşıyıb”.

Xatırladaq ki, Alonso “Reno” komandasının heyətində oynayıb və bu komanda ilə iki titul qazanıb.

# FUTBOL

## Millimiz DÇ-də ilk görüşünü yanvar ayında keçirəcək

Futzal üzrə dünya çempionatının elit-raund mərhələsində iştirak edəcək Azərbaycan millisinin yer aldığı C qrupunun oyunlarının başlama vaxtı açıqlanıb.

Bütün görüşlər Xorvatiyanın Osiek şəhərindəki "Qradsk vrt Arena"da keçiriləcək.

Yanvarın 29-da keçiriləcək Xorvatiya-Azərbaycan oyunu Bakı vaxtı ilə 23:00-da start götürəcək. Ertəsi gün keçiriləcək Azərbaycan-Rusiya, fevralın 1-də təşkil olunacaq Slovakiya-Azərbaycan oyunları isə saat 20:00-da başlayacaq.

Qeyd edək ki, qrup qalibləri final mərhələsinə yüksələcək. İkinci pilləni tutacaq komandalar pley-off oyunlarında üz-üzə gələcəklər.

**Millinin oyunlarının başlama saatı**

**29 yanvar**

20:00. Rusiya - Slovakiya
23:00. Xorvatiya - Azərbaycan

**30 yanvar**

20:00. Azərbaycan - Rusiya
23:00. Xorvatiya - Slovakiya

**1 fevral**

20:00. Slovakiya - Azərbaycan
23:00. Rusiya - Xorvatiya



## *Klublarımız mübarizəyə ilk mərhələdən başlayacaq*



2020/2021 mövsümündə avrokuboklarda iştirak edəcək komandaların ölkələr üzrə bölgüsü açıqlanıb.

Yeni mövsümdə Azərbaycanı avrokuboklarda təmsil edəcək klubların mübarizəyə hansı mərhələdən başlayacağı da müəyyənləşib. Beləki, Premyer Liqanın qalibi olan komanda Çempionlar Liqasının 1-ci təsnifat mərhələsindən, 2-ci və 3-cü yerin sahibləri isə Avropa Liqasının 1-ci təsnifat mərhələsindən başlayacaq.

Azərbaycan kubokunun qalibi də Avroliqada 1-ci təsnifat mərhələsindən mübarizəyə qoşulacaq. Ötən il kubokun sahibi olan "Qəbələ" mübarizəyə 2-ci təsnifat mərhələsindən başlamışdı. Azərbaycan UEFA-dakı reytinqdə gerilədiyi üçün artıq kubokun qalibi də Avropa Liqasının 1-ci təsnifat mərhələsindən mübarizəyə başlayacaq.

2018-ci ilin yayında UEFA-nın reytinqində 23-cü yerdə olan Azərbaycan indi 3 pillə geriləyərək, 26-cıdır.

## "Zadəganlar"ın qadağası başa çatdı

İdman Arbitraj Məhkəməsi (CAS) "Çelsi"yə tətbiq edilən transfer qadağası ilə bağlı klubun şikayətini təmin edib.

London klubunun pəncərəsi üçün cəzası 1-ə endirilib. Beləliklə, artıq qarşıdakı yanvar ayında onlar futbolçu ala, sata, icarəyə verə və götürə biləcəklər.

Xatırladaq ki, daha əvvəl FİFA yeniyetmə futbolçuların transferi məsələsində beynəlxalq qaydaları pozduğu üçün "Çelsi"yə 2 transfer pəncərəsini əhatə edən qadağa tətbiq etmişdi.

## Çempionlar Liqası: qrupda bir qələbə bütün suallara cavab verəcək

Bu gün və sabah UEFA Çempionlar Liqasının qrup mərhələsində son görüşlər keçiriləcək. Keçirilən 16 görüşdən sonra ÇL-də mübarizəni davam etdirən və Avropa Liqasına vəsiqə əldə edən komandaların adları müəyyənləşəcək. Artıq qrupda uğurlu çıxışı ilə vəsiqə əldə edən 8 komandanın adı müəyyənləşib. Digər komandalar isə hakimlərin start fitini gözləyir.

E qrupunda hər üç komandanın növbəti mərhələ şansı hələ də qalır. Günün ən tez başlayan iki matçında maraqlı görüşlər bizi gözləyir. "Zalsburq" doğma azarkeşlər önündə "Liverpul"u qonaq edəcək. Bu matçda avstriyalılar qələbə qazanacağı təqdirdə yarışda mübarizəni davam etdirə biləcək. "Zalsburq" Çempionlar Liqasının son qalibinə cavab vermək əzmindədir. Azarkeşlər ilk görüşü yəqin ki, unutmayıblar. "Enfild"də keçirilən görüşdə 3 top geri olmasına baxmayaraq, "Zalsburq" 1 saatın tamamında hesabı bərabərləşdirə bilmişdi. Lakin Məhəmməd Salahın 69-cu dəqiqədə vurduğu qol "Liverpul"a 3 xal qazandırmışdı. Qrupun digər görüşündə "Napoli" aktivində bir xalı olan "Genk"lə üz-üzə gələcək. İlk görüşdə qeydə alınan qolsuz heç-heçə nəticəsində məhz belçikalılar bir xal əldə etmişdilər. "Napoli" əgər bu matçda qələbə qazansa, növbəti mərhələyə vəsiqə əldə edə biləcək. Çünki, "Zalsburq" çətin ki, "Liverpul"a uduzsun.

F qrupunda da vəziyyət hələ ki, gərgin olaraq qalır. "Barselona" bu qrupda növbəti mərhələyə vəsiqə əldə edən yeganə komandadır. Lakin "İnter" İtaliyada qrup liderini məğlubiyyətə uğradıb, ikinci vəsiqəni özü üçün təmin etmək istəyir. İlk görüşdə səfərdə hesabı açıb, sonradan məğlub olan "İnter" həmin vəziyyəti təkrarlamaq istəməyəcək. Əks halda Dortmund "Borussiya"sı "Siqnal İduna Park"da "Slaviya"ya qalib, gəlib, "İnter"i qabaqlayacaq. Lakin "Slaviya"da asan rəqib deyil. Hər halda bütün suallara 90 dəqiqənin tamamında aydınlıq gələcək.

G qrupunda 4 komandanın hər birinin növbəti mərhələyə vəsiqə əldə etmək imkanı var. Hər hansı bir uğursuz çıxış sayəsində, "Leyptsiq"i çıxmaq şərtilə, komandalardan biri UEFA Avropa Liqasına da düşmək şansını itirə bilər. İlk görüşdə "Benfika"nı məğlubiyyətə uğradan "Zenit" səfərdə həmin nəticəni təkrarlamalıdır. Qalib olan tərəf ÇL-də mübarizəni davam etdirəcək. "Lion" isə Fransada "Leyptsiq"lə üz-üzə gələcək. Bu mövsüm uğurla çıxış edən, Bundesliqada zirvəyə yüksələn "Leyptsiq"i "Qrupama" stadionunda rəqibin güclü müqaviməti gözləyir.



H qrupunda 3 komanda iki vəsiqə uğrunda yarışacaq. "Çelsi" austsayder "Lill" məğlub edəcəyi təqdirdə, mübarizəni davam etdirəcək. Qrupun paralel keçən qarşılaşmasında "Ayaks" "Valensiya" ilə görüşəcək. "Mestalya"da öz qapısından 3 cavabsız top keçirən "yarasalar" Amsterdamda mütləq qələbə qazanmalıdır. Əks halda İspaniya təmsilçisi Avroliqada çıxış etməli olacaq. "Ayaks" özü də qələbəni düşünür. Məğlubiyyət Hollandiya çempionunu ÇL-dən uzaqlaşdıra bilər.

Sabah keçiriləcək görüşlərdə isə artıq bəzi komandalar ÇL-in növbəti mərhələsinə vəsiqəni təmin ediblər. A qrupunda PSJ, "Real", B qrupunda "Bavariya", "Tottenhem", C qrupunda "Mançester Siti", D qrupunda isə "Yuventus" oyunlara formal yanaşacaq.

### *Çempionlar liqasının təqvimi:*

**10 dekabr**

**E qrupu**

21:55 Zalsburq (Avstriya) - Liverpul (İngiltərə)
21:55 Napoli (İtaliya) - Genk (Belçika)

**F qrupu**

00:00 İnter (İtaliya) - Barselona (İspaniya)
00:00 Borussiya D. (Almaniya) - Slaviya (Çexiya)

**G qrupu**

00:00 Benfika (Portuqaliya) - Zenit (Rusiya)
00:00 Lion (Fransa) - Leyptsiq (Almaniya)

**H qrupu**

00:00 Çelsi (İngiltərə) - Lill (Fransa)
00:00 Ayaks (Hollandiya) - Valensiya (İspaniya)

**11 dekabr**

**A qrupu**

00:00 Brügge (Belçika) - Real (İspaniya)
00:00 PSJ (Fransa) - Qalatasaray (Türkiyə)

**B qrupu**

00:00 Bavariya (Almaniya) - Tottenhem (İngiltərə)
00:00 Olimpiakos (Yunanstan) - Srvena Zvezda (Serbiya)

**C qrupu**

21:55 Şaxtyor (Ukrayna) - Atalanta (İtaliya)
21:55 Dinamo (Xorvatiya) - Mançester S. (İngiltərə)

**D qrupu**

00:00 Atletiko (İspaniya) - Lokomotiv (Rusiya)
00:00 Bayer (Almaniya) - Yuventus (İtaliya)

## Buffon və Ronaldo uşaqlarla görüşüb

"Yuventus"un oyunçuları Canluici Buffon və Kriştiano Ronaldo ötən ay Albaniyanın Durres şəhərində baş verən zəlzələ zamanı eyvandan tullanıb, qurtulan uşaqlara baş çəkiblər. Onlar uşaqlara imzalı forma hədiyyə ediblər.



Albaniyanın baş naziri Edi Rama zəlzələdən sonra xəstəxanada uşaqları ziyarət edərkən Ronaldo və Buffonu onların yanına gətirəcəyinə söz vermişdi.

## "Real" 19 kluba qoşulub, La Liqadan gedəcək?

"Real" İspaniya La Liqasını tərk etmək niyyətindədir. Bu iddianı Britaniyanın "The Sun" nəşri irəli sürüb. Bildirilir ki, Madrid təmsilçisi yaradılması gündəmdə olan Avropa Super Liqasında mübarizə aparmaq istəyir. Bununla bağlı "Kral klubu"nun prezidenti Florentino Perezin FİFA-nın prezidenti Canni İnfantino ilə görüşdüyü bildirilib. Görüşdə Perez qeyd edib ki, İngiltərədən də olan, ümumən 20 klubun iştirakı ilə özlərinin yeni liqasını yaratmaq fikrindədirlər. Qeyd edək ki, belə bir liqanın olması UEFA-ya alternativ turnir sayılacaq və bu, Avropanın futbol qurumu tərəfindən tanınmayacaq.

# Dünya idmanı






**Üfüqi**

3. İdman geyimləri istehsal edən firma. 6. Yarışlarda iştirak üçün qeydiyyat prosesi. 7. XXI Qış Olimpiya Oyunlarına ev sahibliyi edən şəhər. 8. Kataloniya təmsilçisi. 9. Ad. 10. Aston-...14. İsveçrənin “püşk şəhəri”. 15. İngiltərənin aşağı liqasında çıxış edən komanda.

**Şaquli**

1. Qurum, təşkilat. 2. Məşqçilər və idmançılar üçün keçirilən tədbir. 4. Karate üzrə yığma komandamızın ukraynalı üzvü. 5. “Keşlə” futbol klubunun əvvəlki adı. 10. Avropanın aparıcı idman portallarından biri. 11. Qış idman növü, “Buz üzərində şahmat”. 12. Futbolda termin. 13. İran millisinin keçmiş baş məşqçisi. 16. Dortmund “Borussiya”sının ingiltərəli ulduzu. 17. Podolsk şəhərini təmsil edən hokkey klubu.

## Gimnast 8 metrlik hündürlükdən yıxılıb

Rusiyalı gimnast Yevgeniya Asonova Latviyanın paytaxtı Riqa şəhərində keçirilən yarışda ciddi zədə alıb. “Second İnternational Air Athletics Championship” yarışında mübarizə aparan idmançı səkkiz metrlik hündürlükdən yerə yıxılıb. Məlumata görə, idmançı 1-ci bel və 12-ci sinə onurğasını sındırıb. “Mən artıq Rusiyada reabilitasiya keçirəm. Əlavə əməliyyatlara ehtiyac yoxdur. Hazırda hərəkət edə bilmirəm. Uzun müddət yataq vəziyyətində olmalıyam”, - deyə Yevgeniya Asonova bildirib.

Qeyd edək ki, Rusiya İstintaq Komitəsi hadisə ilə bağlı araşdırmalar aparır.

## *Həbib Nurməhəmmədov karikatura qəhrəmanı olub*

“Bloody Elbow” portalı Rusiyanın MMA döyüşçüsü Həbib Nurməhəmmədovun karikaturalarını səhifəsində yerləşdirib. Karikaturanın ideyası H.Nurməhəmmədovun bir müddət əvvəl çıxışlarının birində motivasiyasının olmaması ilə bağlı etirafı özündə əks etdirir. Rəsmdə 31 yaşlı rusiyalı döyüşçü əvvəlki rəqibləri irlandiyalı Konor Makqreqor və amerikalı Dastin Porye ilə birlikdə təsvir olunub. Üçüncü karikaturada isə Toni Fergüsson yer alıb. Hər bir təsvirdə döyüşçünün motivasiyası on ballıq şkala ilə qiymətləndirilib.

Qeyd edək ki, Həbib Nurməhəmmədov və amerikalı Toni Fergüsson arasında döyüş gələn il aprelin 18-də təşkil olunacaq.




## Qəzetin üz qabığı qalmaqala səbəb olub

İtaliya A Seriyasının 15-ci turunun oyunundan əvvəl dərc olunan “Corriere dello Sport” qəzeti üz qabığında irqçilik notları daşıyan rəsm əks olunub. Belə ki, qəzetin üz qabığında “Qara Cümə” başlığı altında “İnter” klubunun hücumçusu Romelu Lukakunun və “Roma” komandasının müdafiəçisi Kris Smollinqin rəsmləri əks olunub. Bununla bağlı “Milan” klubunun mətbuat xidməti bəyanatla çıxış edib. “Hesab edirik ki, oyunçular, klublar, azarkeşlər və KİV futbolda irqçiliyə qarşı mübarizədə birləşməlidirlər və istifadə etdiyimiz sözlərdə çox diqqətli olmalıyıq”, - deyə komandanın rəsmi saytında qeyd edilib. Qeyd edək ki, “Milan” və “Roma”, komandaları “Corriere dello Sport” qəzetinin nümayəndələrinin ilin sonuna qədər məşqlərində iştirak etməsini və futbolçularının həmin qəzet ilə hər hansı bir əlaqə qurmasını qadağan edib.




**olimpnews.az - sizin saytınız**




## Şumaxerin bolidi satılıb

Britaniyanın “RM Sothebys” şirkəti Abu-Dabidə maraqlı hərrac təşkil edib. Hərracda Şumaxerin Ferrari F2002 bolidi satışa çıxarılıb. Məhz bu boliddə Formula 1 əfsanəsi Mixael Şumaxer 2002-ci ildə çempion adının qazanıb. İtaliyalı iştirakçının 6,6 milyon dollar təklifi qarşılığında Ferrari F2002 bolidi satılıb. Əldə olunan gəlir Mixael Şumaxer fonduna yönləndiriləcək.



Elton Güliyev, Hürrü Abdullayev, Mikayıl Quliyev, Şövkət Səlimov, Vahid Məhərrəmov, Natiq Babayev, Aslan Şirəliyev və Murad Fərzəliyev Namiq Hüseynova, anası

**Şövkət xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.
Allah rəhmət eləsin!

“Olimpiya dünyası” qəzetinin kollektivi Namiq Hüseynova, anası

**Şövkət xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19